*Azərbaycan dili və ədəbiyyat tədrisi*
2025 / Cild 71, Say 3 / 74–86
https://doi.org/10.48445/z5094-4023-4467-p

# İbtidai sinif şagirdlərinin yazılarındakı səhvlərin islahı rabitəli nitqin inkişafı üzrə işin əsası kimi

***Maya Qasımova*** [1]

**XÜLASƏ**
*Şagirdlərdə oxuduğunu, eşitdiyini və gördüyünü ədəbi dil normalarına uyğun şifahi və yazılı şəkildə ifadə etmək bacarığını formalaşdırmaq dil təlimi qarşısında duran əsas vəzifələrdən biridir. Müasir dövrdə təhsilin məzmunu məktəblilərin şifahi və yazılı rabitəli nitqinin inkişafı probleminə diqqətin artması ilə xarakterizə olunur. Hazırda məktəblilərin kommunikativ tərbiyəsinə xüsusi əhəmiyyət verilir. Bu, təsadüfi deyil, çünki şagirdlərin nitq inkişafında əldə etdikləri nailiyyətlər digər fənlərin mənimsənilməsinin effektivliyini müəyyənləşdirir, onların ictimai həyatda fəal iştirakına şərait yaradır, zəruri nitq bacarıqları ilə təmin edir, nitq mədəniyyətinə yiyələnmələrinə imkan yaradır. Lakin bu gün bir sıra məktəblərin ibtidai siniflərinin Azərbaycan dili dərslərində apardığımız müşahidələr və sinif müəllimlərilə söhbətlər onu deməyə əsas verir ki, şagirdlərin rabitəli nitq bacarıqlarının formalaşdırılmasına yetərincə diqqət ayrılmır. Şagirdlərin fikirlərinin ifadəsindəki dolaşıqlıq, qeyri-dolğunluq, qeyri-dəqiqlik və bəsitlik müəllim tərəfindən qeydə alınmır və bu problemlə bağlı hər hansı bir işin aparılması planlaşdırılmır. Məqalədə ibtidai sinif şagirdlərinin inşa yazılarında tez-tez rast gəlinən səhvlər müəyyənləşdirilir, inşa yazılarına hazırlıq məqsədilə işin təşkili zərurəti vurğulanır və bu istiqamətdə görüləcək işlər işıqlandırılır.*

**AÇAR SÖZLƏR**
*rabitəli nitq, ibtidai məktəb, inşa yazıya hazırlıq, səhvlər üzərində işin təşkili*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 22.05.2025
Qəbul edilib: 13.08.2025

[1] Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0000-0001-9116-4331 | maya0866@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
2025 / Volume 71, Issue 3 / 74–86
https://doi.org/10.48445/z5094-4023-4467-p

# Correction of Errors in the Writings of Elementary School Students as a Basis of Work on the Development of Communicative Speech

***Maya Gasimova*** [1]

**ABSTRACT**

*One of the main tasks of language teaching is to form the ability in students to express what they read, hear, and see in oral and written form in accordance with the norms of the literary language. In the modern era, the content of education is characterized by increased attention to the problem of the development of oral and written coherent speech of schoolchildren. Currently, special importance is attached to the communicative education of schoolchildren, because their success in speech development determines the effectiveness of mastering other subjects, creates opportunities for students to actively participate in public life, equips them with the necessary speech skills, and paves the way for the acquisition of speech culture. However, today, our observations in Azerbaijani language classes in primary grades of a number of schools and conversations with class teachers show that not enough attention is paid to the formation of coherent speech skills in students. The teachers do not notice the vagueness, incompleteness, inaccuracy and simplicity in the expression of students' thoughts, and no work is planned to be done in this regard. The article identifies the errors found in the essays of primary school students, emphasizes the need to organize work in preparation for essays, and highlights the activities to address this issue.*

**KEYWORDS**

*communicative speech, primary school, essay preparation, organization of work on errors*

**ARTICLE HISTORY**

Received: 22.05.2025
Accepted: 13.08.2025

---

[1] Doctor of Philosophy in Pedogogy, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan. https://orcid.org/0000-0001-9116-4331 | maya0866@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

Müstəqil Azərbaycan Respublikası davamlı olaraq inkişaf edir, qlobal dünyanın nailiyyətlərinə doğru inamla irəliləyir və inteqrativ məzmuna, ən yeni təlim strategiyaları və qiymətləndirmə mexanizmlərinə malik şəxsiyyətyönlü təhsil sistemi qurmaq üçün dünya təcrübəsindən yaradıcılıqla istifadə edir. Dövlətimizin təhsilə hərtərəfli qayğısı onun məzmun və struktur baxımından yenilənməsinə, müasirləşdirilməsinə və keyfiyyətcə təkmilləşdirilməsinə şərait yaradır. Bu gün məktəblərdə şagirdlərin idrak fəallığı üzərində qurulan təlim mühiti onların təhsilə marağını artırır, potensial imkanlarını üzə çıxarmağa şərait yaradır. Təsadüfi deyildir ki, cənab Prezident İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda "səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin yaradılması" qarşıya qoyulan prioritet istiqamətlərdən biri kimi qeyd edilir. Bu, müasir dövrdə şagirdlərin həyata daha hazırlıqlı addım atmaları üçün təlim prosesində lazımi bacarıqlara yiyələnmələrinin vacibliyini bir daha sübut edir.

Səlis, dolğun, ifadəli və aydın nitq insanın kamil bir şəxsiyyət kimi formalaşmasının vacib göstəricilərindəndir. Şagirdlərdə düşünmə, öyrənmə və danışma bacarıqlarını inkişaf etdirmək, onların nitq və dil qabiliyyətlərini formalaşdırmaq, nitq mədəniyyətinə yiyələnmələrini təmin etmək dil tədrisində müasir yanaşmaların hazırlanmasını və daha səmərəli üsulların axtarışını zəruri edir.

Mükəmməl nitq təlimdə uğur və inkişafın açarı olduğu üçün nitq inkişafı problemi dilin tədrisi metodikasında hər zaman aktual məsələlərdən biri olmuşdur. Buna görə də şagirdlərin nitq qabiliyyətlərinin formalaşdırılması istiqamətində sistemli işin təşkili, yeni metodların axtarışı, təhsilin ilkin mərhələsində rabitəli nitqin inkişafı probleminin nəzəri və metodik cəhətdən eksperimental tədqiqinə böyük ehtiyac duyulur.

Rabitəli nitq – dilin leksik tərkibinə və qrammatik quruluşuna yiyələnməyi, habelə onların praktik tətbiqini, öyrənilən dil materialından istifadə bacarığını, yəni oxunmuş və ya müstəqil tərtib edilmiş mətnin məzmununu düzgün, dolğun, aydın və dəqiq şəkildə başqalarına çatdırmaq bacarığını ehtiva edir. İnkişaf etmiş rabitəli nitq şagirdə mühakimələrini məntiqli və əsaslandırılmış şəkildə ifadə etmək, fikirlərini bölüşmək, verilən suallara ətraflı və dəqiq cavab vermək, nəhayət, ifadə, esse və inşa yazmaq imkanı yaratdığından, uğurlu təhsilin əvəzolunmaz şərtidir.

Tədqiqatın əsas məqsədi ibtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişaf səviyyəsinin mövcud vəziyyətini aşkar etməyə imkan verəcək müşahidə və araşdırma aparmaq, şagird inşalarında yol verilən səhvlərin xarakterini müəyyənləşdirmək və bu səhvlərin islahı üzrə sistemli işin təşkilinin şagirdlərin rabitəli nitqinin inkişafında səmərəli olacağını əsaslandırmaqdır. Belə ki, şagird yazılarındakı səhvlərin islahı üzrə işin təşkilinə ciddi şəkildə yanaşılarsa və bununla bağlı mütəmadi, sistemli, planauyğun iş aparılarsa,

şagirdlərdə müstəqil plan qurmaq, hər hansı bir mətn və ya hadisə ilə bağlı şəxsi münasibətini ifadə etmək, müəyyən mövzuda kiçik mətnlər tərtib etmək bacarığının formalaşmasında səmərəli nəticələr əldə etmək olar.

## Metodlar

Problemlə bağlı mövcud vəziyyəti öyrənmək məqsədilə Səbail rayonunun 132–134 saylı təhsil kompleksində ibtidai sinif şagirdlərinin dərs prosesi müşahidə edilmişdir. Bu proses zamanı suallara cavab verərkən, müəyyən mətnlərin məzmununu nəql edərkən şagirdlərin fikirlərini ardıcıl və dolğun ifadə etmək bacarığına xüsusi diqqət yetirilmiş, müstəqil şəkildə qurduqları mətnlərin leksik-qrammatik tərtibatı dəyərləndirilmişdir.

Müsahibə zamanı ibtidai sinif müəllimlərinin Azərbaycan dili fənn kurikulumunda şagirdlərin rabitəli nitqinin inkişaf səviyyəsinə qoyulan tələblərə bələdliliyi, rabitəli nitqi inkişaf etdirmək məqsədilə iş növlərinin seçilməsi və bu yolda qarşıya çıxan çətinliklər müəyyənləşdirilmişdir.

Şagirdlərin yazılı rabitəli nitqinin inkişaf səviyyəsi ilə bağlı aydın təsəvvür əldə etmək, inşa yazılarında səhvlərin nədən qaynaqlandığını müəyyənləşdirmək məqsədilə şagirdlərin yazı dəftərləri nəzərdən keçirilərək təhlil edilmişdir. Alınan nəticələr ümumiləşdirilərək müvafiq bacarıqların formalaşdırılmasında səmərəli ola biləcək iş növləri ilə bağlı müəyyən təkliflər verilmişdir.

Məlumdur ki, rabitəli nitq – gördüklərini, eşitdiklərini və düşündüklərini ifadə etmək ehtiyacını ödəməyə yönəlmiş, vahid bir mövzu ətrafında cərəyan edən bütövlüyü, tamlığı təmin edən, məntiq və qrammatika qanunlarına uyğun olaraq tərtib edilən, tərkib hissələri arasında əlaqəliliyi və ardıcıllığı ilə xarakterizə olunan müstəqil nitqdir. Məktəblilərin rabitəli nitqinin inkişafı onlarda bir sıra xüsusi bacarıqların formalaşmasına kömək edir.

Bir uşağın ana dilinə yiyələnməsi ətrafdakıların nitqini dinləməsi və öz təcrübəsində istifadə etməsi nəticəsində formalaşır. Nitqə praktik yiyələnmənin bu mexanizmini görkəmli psixoloq N. İ. Jinkin müəyyən etmişdir. O, nitqin inkişafını dilin uşağın beyninə qeyri-ixtiyari şəkildə – ətrafdakıların nitqini dinləmək vasitəsi ilə daxil edilməsi kimi dəyərləndirir (Jinkin, 1969, s. 104).

Şagirdlərə düzgün cümlə qurmağı, yəni söz ötürmədən, artıq söz işlətmədən, sözləri dildəki leksik mənasına, qrammatik və sintaktik normalara uyğun olaraq müəyyən bir ardıcıllıqda düzməyi, şifahi və ya lazım gələrsə, yazılı formada ifadə etməyi öyrətmək müəllimin əsas vəzifəsidir. Bu zaman müəllim rabitəli nitqə verilən məzmunluluq, məntiqi ardıcıllıq, qrammatik cəhətdən düzgünlük, sözlərin istifadəsində dəqiqlik, ifadəlilik və aydınlıq kimi tələblərin reallaşdırılması zərurətini də unutmamalıdır (Ramzayeva, Lvov, 1987, s. 215).

Nitq inkişafı prosesində şagirdlər ümumilikdə onların rabitəli nitqinin inkişaf səviyyəsini göstərən müəyyən bacarıqlara yiyələnirlər. Bu bacarıqlara aşağıdakılar daxildir:

- verilmiş mövzunu anlamaq, dərk etmək, mahiyyətini mümkün qədər tam açmaq bacarığı;
- kompozisiyanı müəyyən bir mövzu, fikir ətrafına qurmaq bacarığı;
- həyat təcrübəsinə əsaslanaraq mövzu ilə bağlı lazımi məlumatları toplamaq, bir sözlə, müxtəlif mənbələrdən əldə etmək bacarığı;
- əldə edilmiş materialı sistemləşdirmək, ardıcıllığı müəyyənləşdirmək, plan hazırlamaq və düşüncələri plana uyğun olaraq ifadə etmək bacarığı;
- normalara uyğun olaraq dilin bədii ifadə vasitələrindən istifadə etmək bacarığı;
- mətni şifahi və ya yazılı formada tərtib etmək bacarığı;
- mətni təkmilləşdirmək, redaktə etmək bacarığı.

Yuxarıda sadalanan nitq bacarıqları şagirdlərdə praktik şəkildə, bir-biri ilə sıx əlaqədə formalaşır.

Rabitəli nitqə xas olan vacib xüsusiyyət – nitqin aydın və anlaşıqlı olmasıdır. Belə ki, kommunikativ funksiya rabitəli nitqin əsas funksiyasıdır və bu, iki formada – dialoq və monoloq şəklində reallaşır. Nitq inkişafı üzrə iş sistemində rabitəli nitqin hər iki formasının inkişaf etdirilməsi zəruridir.

Monoloji nitq psixoloji və linqvistik cəhətdən dialoji nitqdən daha mürəkkəbdir. Çünki danışan bu nitq vasitəsilə dinləyəni hadisələrin məcrasına daxil etməli, danışdığının hər kəs tərəfindən başa düşülməsinə nail olmalıdır. Monoloq insandan daha güclü yaddaş, nitqin məzmun və formasına xüsusi diqqət tələb edir. Eyni zamanda monoloji nitq dialoq və adi söhbətdən fərqli olaraq daha çox məntiqi düşüncəyə, təfəkkürə istinad edir. Monoloqun ətrafdakı insanlara aydın olması məqsədilə daha dəqiq leksik vahidlərdən, tam və geniş cümlələrdən istifadə olunmalıdır.

Dilin səs sistemi, lüğət tərkibi, qrammatik quruluşu ilə bağlı uşağın əldə etdiyi bütün bacarıqlar rabitəli nitqdə birləşərək reallaşır.

Rabitəli nitq sosial funksiyanın da daşıyıcısıdır. Belə ki, rabitəli nitq uşağa ətrafdakı insanlarla əlaqə qurmaqda kömək edir və uşaq şəxsiyyətinin inkişafı üçün ən vacib şərt kimi cəmiyyətdəki davranış normalarını tənzimləyir. Müstəqil yazılmış inşalar şagirdlərin bədii nitq təcrübəsini zənginləşdirir, nitqinin ifadəliliyini və obrazlılığını inkişaf etdirir.

Rabitəli nitqin inkişafı təfəkkürün inkişafı ilə paralel olaraq, uşaqların fəaliyyət sahəsinin genişlənməsi və ətrafdakı insanlarla ünsiyyət formalarının mürəkkəbləşməsi ilə əlaqəli şəkildə, tədricən baş verir. Görkəmli psixoloq D. V. Elkonin yazır: "Uşaqların həyat

tərzinin dəyişməsi, böyüklərlə onların arasında yeni münasibətlərin formalaşması, yeni fəaliyyət növlərinin yaranması uşaqların nitqinin forma və funksiyalarının differensasiyasına (dəyişməsinə) gətirib çıxarır. Bu zaman ünsiyyətin yeni vəzifələri ortaya çıxır. Bu vəzifələr uşaqların duyğu və hisslərini, düşüncələrini, təəssüratlarını ətrafdakılara çatdırmaq istəyini özündə ehtiva edir".

Rabitəlilik kommunikativ nitqin əsas şərtidir. Şifahi nitqin rabitəlilik kriteriyalarını aşağıdakı kimi müəyyənləşdirmək olar:

- cümlənin üzvləri arasındakı əlaqə,
- hekayənin hissələri arasındakı semantik (məna) əlaqələr,
- cümlələr arasındakı məntiqi və qrammatik əlaqələr,
- fikirlərin ifadəsində tamlıq (bütövlük).

Həmçinin rabitəli, dolğun nitqin vacib xüsusiyyətlərindən biri fikrin ifadəsində ardıcıllığın gözlənilməsidir. Bu xüsusiyyətin pozulması ifadənin rabitəliliyinə xələl gətirir. Rabitəli nitqin semantik və məntiqi cəhətdən düzgün qurulması vacib şərtlərdəndir. Çünki rabitəli mətni yalnız dillə bağlı biliklərin tətbiqi sayəsində qurmaq mümkün deyil, bu proses eyni zamanda məntiqi yanaşma da tələb edir.

Rabitəli nitq *situativ* və *kontekstual* olur. Situativ nitq müəyyən şəraitlə bağlı olduğundan, müsahiblər bir-birini qısa replikalar, natamam cümlələr vasitəsilə belə anlaya bilirlər. Kontekstual nitqdə isə məzmun, mahiyyət kontekstdən anlaşılır. Rabitəli nitqin bu formasının çətinliyi ondan ibarətdir ki, o, konkret bir situasiya ilə bağlı deyil. Burada qavrama dayaq rolu oynamadığından, danışan fikrini izah etmək üçün yalnız dilin imkanlarından maksimum dərəcədə istifadə etməli olur ki, dinləyicidə analoji təsəvvürlər yarada bilsin.

Uşaqların rabitəli ifadələrini aşağıdakı kriteriyalara görə təsnif etmək olar:

- funksiyasına görə: dörd növdə monoloq ayırd edilə bilər: nəqli, təsviri, mühakimə və qarışıq xarakterli olanlar;
- əldə olunduğu mənbəyə görə: şəkil, real əşya, kitab, şəxsi təcrübə və s. üzrə olanlar;
- uşağın istinad etdiyi əsas psixi prosesə görə: yaddaş, qavrayış, təxəyyül əsasında qurulanlar.

Professor Y. Kərimov əlavə olaraq, şagirdlərin qurduğu mətnləri ifadə formasına (şifahi və ya yazılı), təlim əhəmiyyətinə (öyrədici və yoxlama) və şagirdlərin müstəqillik dərəcəsinə (fərdi və kollektiv) görə də təsnif edir (Kərimov, 2013, s. 512–515).

Beləliklə, "rabitəli nitq" termini bir-biri ilə qarşılıqlı əlaqədə olan və özündə vahid semantik-struktur bütövü ifadə edən bir mövzu ətrafında birləşmiş nitq fraqmentlərinin məcmusudur. "Rabitəli nitq necə olmalıdır və hansı tələblərə cavab verməlidir?" sualına cavab verməyə çalışaq.

1. Rabitəli nitqə xas olan əsas keyfiyyət onun *düzgünlüyüdür* ki, bu, fikirlərin ifadəsində ədəbi dilimizin qrammatik, orfoqrafik və punktuativ normalarını gözləməyin zəruriliyini nəzərdə tutur.

2. Rabitəli nitqə verilən digər tələb onun *aydınlığı*, yəni dinləyənlər üçün başadüşülən olmasıdır. Bəzən danışan nitqini bəzəmək və "dəbli" görünmək üçün yersiz olaraq müəyyən əsərdən götürdüyü cümlələrdən, ifadələrdən istifadə edir və belə hallarda onun nitqinin təbiiliyi, aydınlığı pozulur.

3. *Təmizlik* rabitəli nitqə qoyulan bir tələb kimi, ifadələrdə jarqonlardan, vulqar sözlərdən, dialektizmlərdən, şivələrdən, azərbaycanca qarşılığı olduğu halda, alınma sözlərdən istifadə edilməməsini nəzərdə tutur.

4. Rabitəli nitqdə *dəqiqliyin* gözlənilməsi, söz və ifadələrin seçiminə məsuliyyətli yanaşmada təzahür edir və onlardan məqamına görə yerli-yerində istifadə edilməsini nəzərdə tutur.

5. Rabitəli nitqdə *ifadəlilik* fikirlərin çatdırılmasında monotonluqdan uzaqlaşmağı, intonasiya, səsin gücü, tonu, tembri ilə müsahibə təsir edə bilməyi nəzərdə tutur.

6. Rabitəli nitqdə *zənginlik* fikirlərin ifadəsində rəngarəngliyi gözləməyi, eyni tipli cümlələrdən, söz və konstruksiyalardan istifadə etməməyi ehtiva edir.

Şagirdlərdə rabitəli nitq bacarıqlarının zamanla, öz-özünə, kortəbii şəkildə formalaşacağını düşünmək böyük yanlışlıq olardı. Çünki bəzi nitq qabiliyyətləri kortəbii şəkildə formalaşa bilməz, əks təqdirdə, nitqin inkişafında lazımi səviyyə əldə edilməz, nitq bəsit və primitiv xarakter alar. Bu baxımdan, kiçikyaşlı məktəblilərin rabitəli nitqinin inkişaf etdirilməsi müəllimin sistematik və planauyğun şəkildə müdaxiləsini tələb edən bir prosesdir. İbtidai sinif müəllimi bilməlidir ki, şagirdlərdə hər hansı bir mövzu ilə bağlı inşa, esse yazmaq, hekayə qurmaq və s. bacarıqların inkişafı dərslikdəki mətnlərin oxusu, dinləyib-anlama bacarığı ilə üzvü surətdə bağlıdır. Bu səbəbdən dərslikdəki oxu mətnlərinin məzmunu, ideyası, strukturu, ifadə üslubu və formasının təhlili üzərində ciddi iş təşkil edilməlidir.

Professor V. Qurbanov yazır: *"Qabaqcıl müəllimlər Azərbaycan dili dərsliklərindəki hekayə mətnlərinin struktur məzmun xüsusiyyətlərini müntəzəm təhlil yolu ilə şagirdlərə hekayə yazmağın əlifbasını öyrədə bilirlər"* (Qurbanov, 2021, s. 105).

Qeyd etməliyik ki, müasir proqram və dərsliklərin məzmunu şagirdlərdə oxuduğunu, eşitdiyini, gördüyünü ədəbi dil normalarına uyğun olaraq, şifahi və yazılı şəkildə ifadə etmək bacarığını formalaşdırmaq vəzifəsinin reallaşdırılmasına yetəri qədər imkan verir. Çünki son dövr orta məktəb dərsliklərində yer almış mətnlər, araşdırmaya sövq edən müxtəlif növ tapşırıqlar şagirdlərin rabitəli nitqinin inkişafına istiqamətlənmişdir. İbtidai sinif müəllimlərinin bu imkanları dəyərləndirməsi, şagirdlərlə işləmək bacarığı mühüm rol oynayır. Dil dərsləri elə təşkil olunmalıdır ki, şagird passiv mövqedə olmasın – düşünsün, danışsın, oxusun, fikirlərini istər şifahi, istərsə də yazılı formada ifadə etmək tələbatı duysun. Lakin

bu gün bir sıra məktəblərin ibtidai siniflərinin Azərbaycan dili dərslərində apardığımız məqsədyönlü müşahidələr, sinif müəllimləri ilə aparılan söhbətlər nəticəsində aydın olur ki, şagirdlərdə rabitəli nitq bacarıqlarının formalaşdırılmasına diqqət yetərli qədər deyil. Müəllimlərin əksəriyyəti Azərbaycan dili dərslərində diqqəti daha çox dilimizin qrammatik qaydalarının öyrədilməsinə, şagirdlərin oxu bacarıqlarının formalaşdırılmasına yönəldir, çox az qismi isə şagirdlərdə rabitəli nitq bacarıqlarının formalaşdırılmasını vacib məqsəd kimi qəbul edir. İbtidai sinif müəllimlərinin əksəriyyəti interaktiv təlim üsullarının səmərəliliyini etiraf etsələr də, ənənəvi təlimdən uzaqlaşa bilmirlər. Dərslər əvvəlki qaydada – mətnin oxusu, məzmun ətrafında səthi sual-cavab və aşağıda təqdim edilən tapşırıqların yerinə yetirilməsi sxemi üzrə aparılır. Şagirdlərin rabitəli nitq vərdişlərinin, fikirlərini ifadə etmə bacarıqlarının inkişafı üzrə işə lazımi qədər yer verilmir. Yer verildikdə belə, şagirdlərin fikirlərinin ifadəsindəki dolaşıqlıq, qeyri-dolğunluq, qeyri-dəqiqlik, bəsitlik müəllim tərəfindən qeydə alınmır və bununla bağlı hər hansı bir işin aparılması planlaşdırılmır.

Şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi məqsədilə aparılan işin ümumi mənzərəsini müəyyənləşdirmək məqsədilə 132 saylı məktəbin II sinfində müşahidə apardıq. Şagirdlərə Azərbaycan dili dərsliyinin 43-cü səhifəsində yer almış “Bəyaz və Cubbulu” mətni keçilirdi. Mətn genişhəcmli olub, dörd hissədən ibarətdir. Bu səbəbdən mətnin tədrisi üçün bir neçə saat vaxt ayrılmışdır. Müəllimlər üçün metodik vəsaitə (İsmayılov və b., 2021) əsasən mətnin tədrisi prosesində *“Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 3.1.2)”, “Şəklə, bilik və təxəyyülünə əsaslanaraq mətnin məzmununu dəyişir və ya davam etdirir (st. 2.2.5)”, “Dinlədiyi mətni genişləndirərək nəql edir (st. 1.1.1)”, “Suallara və illüstrasiyalara əsasən dinlədiyi mətni şərh edir (st. 1.1.1)”, “Mətnin hissələrini yarımbaşlıqlarla ifadə edir (st. 2.2.3)”* kimi standartların reallaşdırılması məqsəd qoyulmuşdu. Mətnin dördüncü – sonuncu hissəsinin oxusundan sonra dərsliyin 47-ci səhifəsində olan Ç tapşırığının şərtinə əsasən, müəllim şagirdlərə “Ağdamın məşhur yerləri” dinləmə mətnini səsləndirməli idi. Daha sonra şagirdlər dinlədikləri mətnə əsasən iş dəftərindəki tapşırıqda verilmiş şəkillərin aid olduğu yerləri müəyyənləşdirməli və həmin yerlər barəsində öyrəndikləri məlumatları yazmalı idilər. Qeyd etməliyik ki, şagirdlərin əksəriyyəti şəkillərə əsasən yeri müəyyənləşdirməkdə çətinlik çəkmədilər və birinci şəklin “Çay evi”nə, ikinci şəklin isə “Çörək muzeyi”nə aid olduğunu söylədilər. Daha sonra müəllim şagirdlərə həmin yerlər barədə dinləmə mətnindən öyrəndiklərini yazmağı təklif etdi. Bəzi şagirdlərin yazdığı nümunələrə diqqət yetirək (Qeyd etməliyik ki, şagirdlərin yazısı olduğu kimi, yəni orfoqrafik, punktuativ və s. qüsurlarla heç bir düzəliş edilmədən təqdim edilir):

Ağalarova Fərqanə: *“Ağdam çörək muzeinin üstündə mozayka var idi. Orda 3 ildən qalmış buğdalar var idi. Əvvəl belə olub. Ermənilərin hücümlarından sonra orda ancaq daşları və şəkli qalmışdı. Ağdam çay muzeyində uş qatı var idi”.*

Əhmədova Zeynəb: *"Ağdamdakı çörək muzeyində müzelka var idi eksbanad var idi həmdə ora çörək muzeyi idi bu əvvəlki haldır. Çay evinin 3 qatılı var idi. Onun başında uca bir şeydə var idi".*

Hətəmxanlı İnci: *"Ağdam çörək muzeyində yerləşən mozaika kiçik daşlardan düzəlmiş eksponat. Ağdam çay evi çox gözəl idi. Çay evi 3 qat idi".*

Cəfərzadə Nadir: *"Çörəy muzeyi rəngli daşlardan düzəldilib. Çörəy muzeyi Ağdamda yerləşir. Ağdam çay evi əvvəl qəşəng bir evidi. Sonra ermənilər gəlib dağıtdılar. İndi orada yenidən qurma işləri başlayıb".*

Axundov Faiq: *"Ağdam çay evi əvvəldən gözəl bir çay evi idi. İndi isə Ağdam çay evi toz-torpaq ilə yıxılıb. Gələcəkdə xəyal edirəm ki, Ağdam çay evi əvvəldəndə yaxşı olar. Ağdam çörək muzeyi əvvəldən çox gözəl idi. İndi isə Ağdam çörək muzeyi nə gündədi".*

Qaibova Nərmin: "*Ağdam çörək muzeyinin ortasında mozaika təsvir olunmuşdur. Qədim zamanlarda Ağdam çörək muzeyini ermənilər dağıtmışdı. Ağdam çörək evi isə üçmərtəbəli idi"* (Görünür, son cümlədə şagird *Ağdam "Çay evi" isə üçmərtəbəli idi* yazmaq istəmişdir).

Səmədzadə Miray: *"Ağdamdakı çörək muzeyinin üstündən mozaika var daşdaşmış buğda düyüləri*

*Ağdam çay evi üç qat olub Ağdamın köhnə çay evi idi:".*

Babayev Seyidibrahim: *"Ağdam çörək muzeyi – orada 100lərlə buğda olurdu. Mozayika da var idi.*

*Ağdam çay evi – üç mərtəbəli idi".*

**Nəticələr**

Nümunələrdən göründüyü kimi, şagirdlərin yazılarında xeyli sayda səhvlər var. Bu səhvlər yalnız orfoqrafik, punktuativ xarakter daşımır (Halbuki yazının orfoqrafik və punktuativ cəhətdən düzgün olması da yazıya verilən başlıca tələblərdəndir). Şagird yazılarında məzmun səhvləri üstünlük təşkil edir. Belə ki, şagirdlər verilmiş mövzunu əhatəli şəkildə ifadə etməkdə, xüsusilə Ağdamın "Çay evi" və "Çörək muzeyi" ilə bağlı lazımi faktları ötürmədən məlumatı dolğun ifadə etməkdə çətinlik çəkirlər. İnşanı yazarkən hissələr arasında nisbət gözlənilmir, bir hadisə haqqında geniş məlumat verildiyi halda, digər hadisə yalnız bir cümlə ilə ifadə edilir.

İnşa yazılarında müşahidə etdiyimiz digər qüsurlurdan biri də fikirlərin ifadəsində ardıcıllığın gözlənilməməsi idi. Şagirdlər eyni fikrə dəfələrlə qayıdırdılar. Düşünürük ki, fikirlər arasında məntiqi ardıcıllığın gözlənilməməsinə səbəb inşa yazısından öncə plan tərtibi üzrə işin aparılmaması idi. İnşa yazısına hazırlıq zamanı planın tərtibi, onun ayrı-ayrı maddələrinin sərhədlərinin müəyyənləşdirilməsi, hər bir plan maddəsi ətrafında şagirdlərin nəqlinin təşkili məzmunun ardıcıl və dolğun çatdırılmasında, inşa mətnində yol verilə bilə-

cək məntiqi səhvlərin qarşısının alınmasında əhəmiyyətli rol oynaya bilər. Plan – mətnin əsas məna vahidlərinin məntiqi cəhətdən ardıcıl sadalanmasıdır. Belə ki, mətn qurmaq "yalnız üslubi deyil, məntiqi çalışmadır" (Kərimov, 2013, s. 509). Müəllim şagirdlərə izah edir ki, planın hər bir bəndi mətnin fikir bütövlüyünə malik bir hissəsinin yığcam ifadəsidir. Hər hansı bir mətnə plan tərtib etmək üçün onu məna vahidlərinə bölmək və hər vahidi qısa adlandırmaq lazımdır. Planın bəndləri mətndə ifadə olunan bütün məlumatı əhatə etməli və biri digərini təkrarlamamalıdır. "Plan tərtibi fikri əməliyyatla, ən mühüm olanı seçmək, hissələrinə ayırmaq və ümumiləşdirməklə əlaqədardır. Bir çox hallarda şagirdlər plan tərtib edərkən tamla onun hissələri arasında qarşılıqlı əlaqəni aydınlaşdırırlar" (Kərimov, 2013, s. 509).

Şagirdlər artıq I sinifdən oxunmuş mətn üçün plan qurmaqla bağlı müəyyən biliklərə sahibdirlər. Belə ki, son nəşr I sinif dərsliyinin 28-ci səhifəsində "Mətnin planı" başlığı altında şagirdlərə aşağıdakı məlumat təqdim edilir: *"Mətni nəql etmək üçün əvvəlcə plan qurulur. Planda mətndəki hadisələr qısa şəkildə ifadə olunur"* (Nurullayeva və b., 2020, s. 28).

Müəllim şagirdlərdə mətnin planını qurmaq bacarığını formalaşdırmaq üçün müxtəlif üsullardan istifadə edə bilər: verilmiş planın hansı hekayə və ya nağıla aid olduğunu müəyyən etmək; mətnin planında müəllim tərəfindən məqsədli şəkildə qoyulmuş artıq bəndləri ixtisar etmək; qarışıq verilmiş plan bəndlərinin ardıcıllığını mətnin məzmununa uyğun bərpa etmək; verilmiş planın ayrı-ayrı bəndlərini redaktə etmək; plan maddələri ilə bağlı səsləndirilən versiyalardan mövcud məna vahidini daha dəqiq ifadə edənini seçmək; planın eyni maddəsini sual cümləsi, nəqli cümlə, adlıq cümlə şəklində ifadə etmək (III–IV sinif) və s. Gündəlik olaraq oxu mətnləri ilə bağlı aparılan bu işlər şagirdləri inşa mətnlərinin planını müstəqil şəkildə qurmağa hazırlayır.

Şagird yazılarında rast gələnən ciddi səhvlər üslub səhvləri idi. Belə ki, şagirdlərin demək olar ki, hamısı cümləni düzgün qurmaqda çətinlik çəkirdilər. Yuxarıda təqdim etdiyimiz yazılardan da göründüyü kimi, şagirdlər cümlənin əvvəli ilə sonunu uzlaşdırmaqda, cümlədə ardıcıllığa riayət etməkdə, feilin zamanlarını düzgün işlətməkdə (bir cümlə indiki, digəri, yersiz olaraq, keçmiş və ya gələcək zamanda verilir), bu və ya digər cümlədə ayrı-ayrı nitq hissələrini yerində işlətməkdə çətinlik çəkirlər. Nümunələrdən göründüyü kimi, cümlədə (mətn boyunca) eyni sözü dəfələrlə təkrarlayırlar *(Ağdam çay evi əvvəldən gözəl bir çay evi idi)*, bəzən isə lazımi sözü, ümumiyyətlə, ötürürlər. Bəzi yazılarda adi danışıq üslubuna, yersiz ifadələrə də rast gəlinir *(Çörək muzeyi nə gündədi, Onun başında uca bir şeydə var idi)*. Belə görünür ki, yeni fikrin abzasdan yazılması ilə bağlı şagirdlərin heç bir təsəvvürü yoxdur. Halbuki şagirdlərə artıq I sinifdə abzasla bağlı müəyyən biliklər aşılanır. Belə ki, I sinif dərsliyinin "Bunları bilməliyik" rubrikasında şagirdlərdə abzasla bağlı təsəvvür formalaşdırmaq məqsədilə "Abzas nədir?" başlığı altında aşağıdakı məlumat verilir: *"Nağıl, hekayə mətnləri abzaslara bölünür. Hər abzasda yeni fikir ifadə olunur*" (Nurullayeva və b.,

2020, s. 55). Sözsüz ki, ibtidai sinif müəllimi şagirdlərin dərslikdə verilən bu məlumatla "abzas" məfhumunu dərk edəcəklərinə və qurduqları yazılı inşalarda ondan yerli-yerində istifadə edəcəklərinə ümid etməməli, bu anlayışın qavranılması üçün müxtəlif növ çalış-malar üzrə iş aparmalıdır. Məsələn, ilk olaraq şagirdlərdən oxuduqları mətndə neçə abzasın olduğunu soruşmaq, hər hansı bir abzasda nə haqqında danışıldığını, yaxud bu və ya digər hadisə ilə bağlı məlumatın neçənci abzasda verildiyini xəbər almaq, dərslikdə verilmiş şəklin mətnin hansı abzasına uyğun olduğunu soruşmaq, hər abzasa yarımbaşlıqlar tərtib etmək, ardıcıllığı pozulmuş mətndə məzmuna uyğun olaraq abzasların ardıcıllığını bərpa etməklə bağlı tapşırıq vermək faydalı ola bilər.

İnşa yazılarında çoxsaylı leksik-semantik səhvlərə də yol verilir. Cümlədə yerinə uyğun olmayan sözlərin işlədilməsi *(toz-torpaq ilə yıxılıb)*, lüğətin kasadlığı, sözün qeyri-dəqiq mənada istifadəsi, artıq ifadələrin mövcudluğu leksik-semantik səhvlərə bariz nümunədir. İnşa yazılarında şagirdlərin obrazlı ifadələrdən, bədii təsvir vasitələrindən istifadəsinə isə, ümumiyyətlə, rast gəlinmir.

Təqdim etdiyimiz nümunələrdən göründüyü kimi, esse və inşa yazılarında şagirdlər çoxsaylı səhvlərə yol verirlər. Müşahidə etdiyimiz nəticələr qənaətbəxş hesab edilə bilməz. Lakin unutmamalıyıq ki, ibtidai siniflərdə inşalar öyrədici xarakter daşıyır. Bu səbəbdən müəllim şagirdlərlə heç bir hazırlıq işi aparmadan "bu və ya digər mövzuda inşa yazın" tapşırığı verməməlidir. İnşa yazısından əvvəl hazırlıq işi aparılmalı, hazırlıq zamanı müəllim yazıda meydana çıxa biləcək səhvləri öncədən görməli və onların qarşısını almaq üçün lazım gələrsə, xəbərdarlıq xarakteri daşıyan iş aparmalıdır. İnşa yazısına hazırlıq zamanı məzmun üzərində ciddi iş getməlidir. Gəzinti və ekskursiyalarda inşa mövzusu ilə bağlı müşahidələr təşkil edilməli, videoçarx və şəkillər izlənməli, müvafiq bədii parçalar oxunmalı, məzmunun təhlili ilə bağlı iş aparılmalıdır. Bu, şagirdlərin təxəyyülünü lazımi təsəvvürlərlə zənginləşdirməyə, təsvir edəcəkləri obyektlə bağlı natamam fikirləri dolğunlaşdırmağa, sistemə salmağa kömək edir, şagirdlərdə gördüklərini, hiss etdiklərini sözlərlə ifadə etmək arzusu oyadır. Yaxşı tanımadığı, üzərində müşahidə aparmadığı, canlı maraq, müəyyən hisslər oyanmadığı bir mövzu haqqında şagirdin yaxşı inşa yazacağını gözləmək düzgün deyil.

İnşaya leksik hazırlığın təşkili də vacib amillərdəndir. "İnşaya leksik hazırlıq rəngarəng məntiqi çalışmalar, sözlərin çoxmənalılığı, söz yaradıcılığı, omonimlər, sinonimlər, antonimlər və s. üzrə işin aparılmasını, həmçinin tematik lüğət üzrə işin təşkilini tələb edir" (Kərimov, 2013, s. 505). Məsələn, yuxarıda qeyd etdiyimiz ("Ağdamın məşhur yerləri" ilə bağlı) inşa yazısına hazırlaşmaq üçün müəllim şagirdlərə: *"Vətən torpağımızı necə adlandıra bilərik?"* sualı ilə müraciət edir *(dədə-baba yurdum, doğma torpağım, Ana vətənim, doğma diyarım, babalarımızın yadigarı, əcdadlarımızın əmanəti, tarixi yurdum, ana qucağım, qüdrətli Azərbaycanım, baba ocağım, isti beşiyim* və s.) və verilən cavablar lövhədə qeyd olunur.

Müəllim, təxmini olaraq, şagirdlərin inşada işlədə biləcəyi çətin sözlər üzərində də iş apararaq onların yazısında yol verilə biləcək orfoqrafik səhvlərin qarşısını almalıdır. Həmçinin ibtidai siniflərdə esse və inşalar öyrədici xarakter daşıdığına görə yazı zamanı şagirdlərə müxtəlif mənbələrdən: lüğətlərdən, ensiklopediyalardan, müxtəlif məlumat mənbələrindən, məktəbin maddi-texniki bazası imkan verərsə, internet resurslarından istifadə etməyə də icazə verilməlidir.

**Müzakirə**

Şagirdlərin yazısı üzərində apardığımız müşahidələr göstərir ki, ibtidai sinif şagirdləri rabitəli nitqin inkişafı baxımından müəyyən bacarıqlara yiyələnmiş olsalar da, bu, kurikulumda təsbit edilmiş standartlar baxımından yetərli sayıla bilməz. Məhz bunun nəticəsidir ki, ibtidai sinfi başa vuran və artıq orta təhsilə qədəm qoyan şagirdlərin rabitəli nitqinin inkişaf səviyyəsi, əsasən, gözlənilən tələblərə cavab vermir. Belə ki, onlar düşündüklərini aydın, dolğun və düzgün şəkildə ifadə etməkdə çətinlik çəkir, nitqlərində məzmun, üslub səhvlərinə, yersiz ifadələrə yol verirlər.

İbtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişafı üçün optimal yolların axtarışı vaxtaşırı tədqiqatçı-alimlərin araşdırma obyekti olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, şagirdlərin rabitəli nitqini inkişaf etdirmək üçün müəllim, ilk növbədə, dərslikdəki oxu mətnləri üzərində işini lazımi srtategiya üzərində qurmalı və şagirdlərə fikirlərini qrammatik və üslubi cəhətdən düzgün, aydın, dolğun ifadə etmək bacarığını aşılamalıdır. Oxu – şagirdin dilə həssaslığını, dil duyumunu inkişaf etdirən, məzmunda ifadə olunan mənanın başa düşülməsinə, müəllifin niyyət və çağırışının qavranılmasına, əsərə (qəhrəmana) münasibətin formalaşmasına istiqamətlənmiş bir prosesdir. Bu səbəbdən, oxunmuş mətnlərin ətrafında müsahibə və müzakirələrin təşkili, mətnin geniş, seçmə, yaradıcı şəkildə nəql edilməsi, səhnələşdirilməsi, nəzm əsərlərinin nəsrə çevrilməsi, mətndə ötürülmüş hissələrin (əvvəl, orta, son hissə) bərpa edilməsi, şagirdlərin müstəqil olaraq mətnin süjet xəttinə uyğun fərqli hekayə qurması, esse və ya inşa yazması rabitəli nitqin inkişafında səmərəli iş növlərindən sayılır. Bu səbəbdən yeni nəsil dərsliklərin təhlili əsasında şagirdlərin rabitəli nitqinin müasir tələblər səviyyəsində inkişafına yol açan daha səmərəli yolların, metod və priyomların axtarışına, müxtəlif səpgili iş növlərinin hazırlanmasına istiqamətlənmiş tədqiqatların aparılmasına ehtiyac vardır.

## Nəticə

Təhsilin ilkin pillələrindən başlayaraq, Azərbaycan dili dərslərində şagirdlərin rabitəli nitqinin inkişafı üzərində mütəmadi və sistemli iş aparılmasına lazımi diqqət ayrılmalıdır. Müəllim yazı işini yalnız yoxlayıb qiymətləndirmək vasitəsi kimi deyil, həm də düzəliş edib öyrətmək vasitəsi kimi qiymətləndirməlidir. Bu zaman diqqət yalnız orfoqrafik və punktuasiya səhvlərinə deyil, fikrin dəqiq, düzgün, aydın şəkildə çatdırılmasına, eyni zamanda məzmun, leksik və üslub səhvlərinə yönəldilməlidir. Unutmamalıyıq ki, nitq inkişafında gündəlik olaraq əldə olunmuş kiçik uğurlar mütləq böyük nailiyyətlərə yol açacaqdır.

## Ədəbiyyat


1. Cəfərova, N., Qasımova, M. (2023). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası*. "ADPU nəşriyyatı".
2. İsmayılov, R., Nurullayeva, Ü., Zahidova, Ş., Bayramova, İ., Xanalıyeva, A. (2021). *Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik* (I hissə). "Təhsil".
3. İsmayılov, R., Nurullayeva, Ü., Zahidova, Ş., Bayramova, İ., Xanalıyeva, A., Məhyəddinova, K. (2021). *Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik* (II hissə). "Təhsil".
4. İsmayılov, R., Nurullayeva, Ü., Zahidova, Ş., Bayramova, İ., Xanalıyeva, A., Məhyəddinova K. (2021). *Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti*. "Radius".
5. Kərimov, Y. Ş. (2013). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.* "Səda".
6. Nəhmətova, K. (2020). Esse yazı işinin təşkili metodikası. *Kurikulum,* 2, 57–65.
7. Nurullayeva, Ü., Bayramova, İ., Zahidova, Ş., Allahverdiyeva, N., Xanalıyeva, A. (2020). *Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün "Azərbaycan dili" fənni üzrə dərslik* (II hissə). "Şərq-Qərb".
8. Qurbanov, V. (2021). *Oxu və nitq inkişafı təlimi.* "Müəllim".
9. Rəhimov, A. N. (2015). *Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə).* "BDU".
10. Zhinkin, N. I. (1969). *Kommunikativnaya sistema cheloveka i razvitiye rechi v shkole*. "Prosveshcheniye".
11. Ramzayeva, T. G., L'vov, M. R. (1987). *Metodika obucheniya russkomu yazyku v nachal'noy shkole*. 2 izdaniye. "Prosveshcheniye".
12. Aldakayeva, N. G. (2001). Sochineniye kak osnovnoy vid tvorcheskoy raboty pri obuchenii russkomu yazyku. *Nachal'naya shkola*, 6, 10–16.
13. Shishkina, T. V. (2009). Novyye metody i priyemy v rabote po razvitiyu rechi. *Nachal'naya shkola*, 9, 44–47.